**AQTA-nın əməkdaşlıq elədiyi qurumlar:**

- **İtaliya Respublikasının Səhiyyə Nazirliyi:** Qida təhlükəsizliyi və sanitariya sahəsində mərkəzi dövlət nəzarəti orqanıdır.. https://www.salute.gov.it
- **İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi:** (MASAF) İtaliya hökumətinin mərkəzi icra orqanlarından biridir. Nazirlik ilk dəfə 1946-cı ildə Kənd Təsərrüfatı və Meşələr Nazirliyi adı ilə yaradılmışdır.
  1993-cü il referendumundan sonra qurumun adı Kənd Təsərrüfatı Siyasətlərinin Koordinasiyası Nazirliyi kimi dəyişdirilmişdir. Elə həmin il nazirlik yenidən təşkil olunaraq Kənd Təsərrüfatı, Ərzaq və Meşə Resursları Nazirliyi adını almış, 2006-cı ildən bu adla fəaliyyət göstərmişdir. 2022-ci ildə, Giorgia Meloni hökumətinin formalaşmasından sonra qurum hazırkı strukturda yenidən təşkil edilərək *MASAF* adını almışdır.

  Fəaliyyət və məsuliyyət sahələri

  MASAF:

  - kənd təsərrüfatı,
  - meşə təsərrüfatı,
  - ərzaq siyasəti,
  - balıqçılıq və akvakultura

  sahələrində milli, Avropa İttifaqı və beynəlxalq səviyyədə dövlət siyasətini hazırlayır və koordinasiya edir.

  https://www.politicheagricole.it

- **İtaliya Milli Fitosanitar Xidməti:** Kənd Təsərrüfatı Nazirliyinin tərkibində fəaliyyət göstərən, fitosanitar nəzarət və bitki sağlamlığı sahəsində tədbirləri həyata keçirən ixtisaslaşmış qurumdur. https://www.reterurale.it/fitosanitario

**Hökumətlərarası Komissiya barədə məlumat:**

- Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfdən həmsədri **Azərbaycan Respublikasının energetika naziri**, İtaliya tərəfindən isə **İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavinidir.**
- Komissiyanın sonuncu iclası 2026-cı ilin yanvar ayında Bakı şəhərində keçirilmişdir. Komissiyanın 6-cı iclasının **Protokolunun əlavəsi olan Fəaliyyət Planına "Qida təhlükəsizliyi sahəsində əməkdaşlıq" adlı bənd daxil edilmişdir.**